# Qoy hər evdə toy olsun



***Hər fəslin öz gözəlliyi, öz aləmi, füsunkarlığı vardır. Payız ayı barlı-bəhrəli, toylu-büsatlı aydır. Payızda Azəri yurdunda toy-toya qarışır, oğul, qız toyu!***

***Toy iki sevənin öz kamına, arzu-diləyinə yetməsidir, iki könlün bir-birinə ülfətidir. Ən nəhayət həsrətin vüsala çatmasıdır.***

Toy yeni ailənin özülüdür. Hardakı məhəbbət var, orada ismət var, qeyrət var, din-bərəkət var. "Sevgi sevən mərd olar, sevməyən namərd olar". Azərbaycanın milli iftixarı, sənət peyğəmbərimiz, sevimli şairimiz böyük Səməd Vurğunun ölməz misraları yada düşür:

*Unutmaz aləmdə sevən-sevəni,*
*Məhəbbət ilhama çağırır məni!*

Toy günündə üzlərdə təbəssüm, gözlərdə gülüş, ürəklərdə sevinc bulaq kimi çağlayır.

...Aylardan bəri hamı intizar içindədir; ata, ana, qardaş-bacı, qohum-qonşu çoxdan şadyanalığa hazırlaşır, nigarançılıqla toy gününü gözləyirlər.

Bizim Qazax mahalının İncə dərəsində Aslanbəyli, Qaymaqlı, Kəmərli kəndlərində keçmiş ata-baba adətləri bu gün də yaşayır. Toy mərasimlərində elçi gəlməkdən, toy gecəsinə qədər hər şey ölçülüb biçilir, el dəbinin bütün rəmzi qaydalarından yerli-yataqlı istifadə olunur.

İncə dərəsində toy məclisləri, el şənlikləri lap keçmişdən üzü bəri sazla, qara zurna ilə keçirilir.

İncəlilər sinələri nağıllı-dastanlı, sazlı-sözlü, xoş avazlı, şirin ləmsli Aşıq Avdı, Aşıq Cəlal, Aşıq Sadıq, Aşıq Yəhya, Aşıq Kərəm məclislərini çox yaxşı xatırlayırlar. Bu adlı-sanlı aşıqlarımız neçə-neçə cavanların toyunu eləyiblər, ağır el məclislərini keçiriblər, uzun payız gecələrini sazla-sözlə, nağılla-dastanla açıblar.

Qara zurnada el havalarının gözəl ifaçıları sayılan Hümmət Zambır oğlunun, Musa Zambır oğlunun, Xəlil kişinin, Sayad Dərzi oğlunun, dəfçi Yusif Xanquluoğlunun, Kərim Kərimovun adları bu gün də hörmətlə yad edilir. Dədə Qorqud sənəti hələ unudulmayıb. Onu incəli övladları yaşadırlar. Qara zurnada çalınan "Vağzalı", "Atdandırma", "Yallı", "Ruhani", "Tərəkəmə", "Cəngi", "Sarıtel", "Uzundərə", "Heyvagülü", "Misri", "Qazağı", "Qəhrəmanı" havalarının hərəsinin öz gözəlliyi vardır.

Keçmişdə "Dirədöymə" xalq oyunu bizim toyların bəzəyi olmuşdur. Toylarda igidlər, pəhləvanlar "Güləşəngi" havasında öz güclərini sınayırdılar. Cıdırçılar atla cıdır yarışına çıxardı. Qaliblərə nəmər, xələt verilərdi. Elin hörmətli adamlarından tamada (masabəyi), toybabası seçilərdi. Sağdış, yengələr toyun ən hörmətli adamları sayılardı. Toy adamları bəylə gəlinin şərəfinə sağlıqlar deyər, onlara xoş arzularını bildirərdilər.

Bizim toylarda xoşa gələn adətlərdən biri də "Şax qaldırmaq" olub. Şaxı oğlanın yaxın dostu, qızın isə rəfiqəsi qaldırardı.

Qazağın Kəmərli kəndində yaşayan Vidadi Namazovun, Aslan Budaqovun qara zurnada çalğıları qəlbləri ehtizaza gətirir, könülləri ovsunlayır. A.Budaqov bu sənəti özü sevməklə yanaşı, oğlanları Elmana, Mustafaya, nəvəsi İlkinə də sevdirmiş və öyrətmişdir.

İncə dərəsinin mağarları daha yaddaqalan və unudulmaz olur. Əli xınalı, üzü duvaqlı, gəlinlik fatası geyinmiş qız-gəlinin şərəfinə hamı yeyib-içir, deyib-gülür, rəqs edib şənlənirlər.

*Evimizə gəlin gəlir,*
*Sığallayıb telin gəlir,*
*Görüşünə elim gəlir,*
*Çıraqları gur yandıraq!*
*Evləri işıqlandıraq!*

Budur, "Atdandırma" havası çalınır. "Vağzalı"nın həzin sədaları ilə qız öz ata evindən oğlan evinə gəlin köçür. El adətincə təzə gəlinin ayaqları altında qurbanlıq qoç kəsilir, başı üzərinə şirniyyat səpilir, hamı təzə evlənənlərə xeyir-dua verir.

*Anum, bacım qız gəlin,*
*Əli, ayağı düz gəlin,*
*Yeddi oğul istərəm,*
*Bircə dənə qız, gəlin.*

Bəli, payız fəsli İncə dərəsinin, bizim elin-obanın toylu-büsatlı, çal-çağırlı günləridir. Sevənlər ailə qurub, arzularına, istəklərinə çatırlar. Dünya sevgi dünyasıdır. İnsanı yaşadan məhəbbətdir. Söz Allahı N.Gəncəvi demişkən:

*Mehrabı eşqdir uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəvərin?*

Sevincdən, şadlıqdan öz-özümə pıçıldayıram: "Qoy hər evdə toy olsun".

**Kazım KAZIMLI**